# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

12 OKTYABR 2024-cü il ŞƏNBƏ | № 224 (7982) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ




# Ölkəmiz fəal əməkdaşlığı və tərəfdaşlığı təşviq edir

*Azərbaycan artıq fəal təşəbbüslərilə qlobal dialoqun keçirildiyi bir ölkəyə çevrilib. Regionda yeni reallıqların yaradılması ölkəmizə beynəlxalq miqyasda inamı daha da artırıb.*

Eyni zamanda dünyada yeni qütblərin, qüvvələrin yaranması baş verir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq müasir çağırışları həll etmək, davamlı inkişafı təşviq etmək və qlobal arenada mövqelərini gücləndirmək istəyən ölkələr üçün getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq prioritet istiqamətlərdən biridir.

Müxtəlif beynəlxalq platformalarda uğurla təmsil olunan dövlətimiz dünyada baş verən proseslərə öz münasibətini bildirir, sülh, əməkdaşlıq və təhlükəsizlik naminə fəal təşəbbüslərlə çıxış edir.

(davamı 4-cü səhifədə)

**(əvvəli 1-ci səhifədə)**

Müstəqil Azərbaycan milli maraqlar üzərində qurulan və xoş məramа əsaslanan çoxvektorlu xarici siyasət kursu çərçivəsində regional və qlobal əməkdaşlığın möhkəmlənməsinə davamlı töhfələr verir ki, bu da ölkəmizə bütün dünyada böyük nüfuz qazandırıb. Hazırda respublikamız işğalçı Ermənistan istisna olmaqla bütün qonşu dövlətlərlə yüksəksəviyyəli münasibətlərə malikdir. haqqında çox yazılıb. Bəli, bu yollarla irihəcmli ixrac-idxal əməliyyatları həyata keçiriləcək. Yolların keçdiyi ölkələr tranzit gəlir əldə edəcək, yeni xidmət mərkəzləri yaradılacaq, iş yerlərinin sayı artacaq. Lakin istər Bakı-Tbilisi-Qars, istərsə də "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin iştirakçı dövlətlər üçün böyük siyasi əhəmiyyəti də var.

Rəsmi Bakı etibarlı nəqliyyat dəhlizlərinin təmin edilməsi və yin möhkəmlənməsinə hesablanan təşəbbüsləri BMT və digər təşkilatlar tərəfindən dəstəklənib. Bütün bunlar isə Azərbaycanın və Prezident İlham Əliyevin beynəlxalq səviyyədə artan nüfuzunu əks etdirir. Azərbaycanın ölkələr və beynəlxalq aləmin qlobal iştirakçıları arasında körpü qurulması işində fəal rol oynadığını deyən dövlətimizin başçısı vurğulayır ki, ölkəmiz uzun illərdir beynəlxalq təşkilatlarla səmə-




# Ölkəmiz fəal əməkdaşlığı və tərəfdaşlığı təşviq edir

Azərbaycan dayanıqlı iqtisadi inkişafı ilə daim dünyanın diqqətindədir. Reallıq budur ki, ölkə iqtisadiyyatı sabitdir. Münbit investisiya şəraiti mövcuddur. Bu, təbii sərvətlərə əsaslanır. Hazırda əsas hədəf şaxələndirmədir.

Ölkəmiz indiyədək Avropa İttifaqında təmsil olunan doqquz dövlətlə strateji tərəfdaşlıq haqqında müqavilələr imzalayıb. "Avropanın etibarlı təchizatçısı kimi Azərbaycan bu gün nefti, təbii qazı və elektrik enerjisini ixrac edir. Biz hidrogeni, o cümlədən "yaşıl hidrogen"i ixrac etməyi planlaşdırırıq. Bütün bunlar bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın strateji çərçivəsinin bir hissəsidir", - söyləyən dövlət başçısı İlham Əliyev bildirib ki, Azərbaycan öz regionlarında mühüm daşımalar qovşağıdır. Avropanın enerji xəritəsinə nəzər salsaq, görərik ki, Azərbaycanın təşəbbüsləri sayəsində kəskin şəkildə dəyişib. Neft və qaz boru kəmərləri tamamilə yeni vəziyyət yaradır. Eyni sözləri daşımalara da aid etmək olar. Azərbaycan qonşuları və tərəfdaşları ilə yeni əlaqələr yaradıb. Bakının dəniz limanı infrastrukturuna böyük yatırımlar edilir, Xəzərdə daha çox yük daşıya biləcək əlavə gəmilərin tikintisinə investisiyalar qoyulur.

Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığının nəticəsi kimi, Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycan-Rusiya-İran əməkdaşlığının nəticəsi kimi isə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin yaradılması yalnız bu layihələrdə iştirak edən dövlətlərin deyil, Avropa və Asiya dövlətlərinin də maraqlarını əks etdirir. Qeyd olunan layihələrin iqtisadi tərəfi karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasının şaxələndirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirir. Zamanın da göstərdiyi kimi, belə bir strategiya ölkəyə qlobal enerji bazarında mühüm oyunçulardan birinə çevrilməyə imkan verməklə yanaşı, dünyanın hazırkı enerji təhlükəsizliyinə mühüm töhfələr vermiş oldu. Əgər əvvəllər Azərbaycan Cənub Qaz Dəhlizi (CQD) layihəsini həyata keçirməyə yeni başlayanda ölkənin qaz mənbələrinin şaxələndirilməsinə və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına töhfə verə biləcəyinə şübhə ilə yanaşan müəyyən dairələr var idisə, bu gün vəziyyət kəskin şəkildə dəyişib. Avropa İttifaqının qaz və neft idxalından kritik asılılığı kontekstində Azərbaycan faktiki olaraq enerji resurslarının azsaylı etibarlı təchizatçılarından birinə çevrilib və Cənub Qaz Dəhlizində öz rolunu artırmaq imkanlarını əldə edib. Cənub Qaz Dəhlizi layihəsi Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da artırıb. Təxminən 45 milyard dollar həcmində sərmayə qoyuluşu tələb edən yeni dəhliz vasitəsilə Xəzərin qaz ehtiyatları Avropa İttifaqının mərkəzi ölkələrinə çatdırılacaq. Hazırda getdikcə daha çox Avropa dövləti Azərbaycan qazının tədarükünə maraq göstərir.

Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsi və çoxkonfeksiyalı cəmiyyətə malik olması ölkənin sivilizasiyalararası dialoqda rolunun artmasını şərtləndirir. Respublikamızın nüfuzlu beynəlxalq təşkilatlarda təmsilçiliyi də yüksək səviyyədədir. Son vaxtlarda respublikamızın qlobal həmrəyli-rəli əməkdaşlıq həyata keçirir və Qoşulmama Hərəkatına uğurla sədrlik etmişdir. Bütün bunlar da COP29-un təşkili üçün əsas yaradır.

Azərbaycanın İkinci Qarabağ müharibəsi və birgünlük antiterror tədbirləri nəticəsində öz ərazi bütövlüyünü təmin etməsi Cənubi Qafqazda yeni reallıq yaradıb. Mövcud reallıq bölgədə sülh və sabitliyin, əməkdaşlıq mühitinin təmin olunmasını şərtləndirir. Rəsmi Bakı bunun üçün bütün imkanlardan istifadə edir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan tarixdə nadir rast gəlinən addım atdı: qalib tərəf olmasına baxmayaraq, sülh təklifi ilə çıxış etdi. Münaqişə başa çatdıqdan sonra xalqımızın uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, ölkəmiz tərəfindən Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparılır. Məqsəd regionun sülh və əməkdaşlıq məkanına çevrilməsidir. Ermənistan isə hələ də Azərbaycanın təkliflərinə cavab vermir. Əksinə, vaxt uzadır. Azərbaycan regionda sülhün bərqərar olması naminə irəli sürülən, real nəticəyə yönəldilmiş beynəlxalq təşəbbüsləri dəstəkləyir. Sadəcə Ermənistan hakimiyyəti özündə iradə tapıb regionumuzun gələcəyi naminə sülh sazişini imzalamalıdır. Son dövrlər Azərbaycanın bölgədə fəallaşaraq üçtərəfli formatda əməkdaşlıq əlaqələrini genişləndirməsi və regionun aparıcı dövlətləri tərəfindən dəstəklənməsi Ermənistanı qorxuya salıb. Məsələnin mahiyyəti heç də Azərbaycanın qonşu dövlətlər ilə yaxşı münasibət qurmasında deyil. Prezident İlham Əliyev hər zaman müstəqil siyasət yürüdərək bütün qonşular ilə münasibətlərin qurulmasına nail olub və Azərbaycana yuxarıdan aşağıya baxılması tendensiyasına son qoyulub. Ermənistandan fərqli olaraq rəsmi Bakı heç bir qonşusuna qarşı ərazi iddiaları irəli sürmür və ona görə də irəli sürdüyü iqtisadi təşəbbüslər dəstəklənir. Dünyanın aparıcı dövlətlərinin də maraqlarının toqquşduğu Cənubi Qafqaz regionunda iqtisadi inkişafa və siyasi sabitliyə nail olmaq üçün dünya birliyinə inteqrasiya etmək ciddi əhəmiyyət kəsb edir. Azərbaycanın region, eləcə də dünya ölkələri və beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı ölkənin etibarlı və dayanıqlı tərəfdaş olduğundan xəbər verir.

Bu gün biz milli maraqlara söykənən və bölgədə böyük güclərin qəbul etdiyi dayanıqlı xarici siyasətin şahidi oluruq. Rifaha və sosial inkişafa söykənən davamlı tərəqqiyə təkan verən daxili siyasət, öz maraqlarını, öz doğrularını və öz şərtlərini dönməz olaraq, ardıcıl şəkildə dünyaya bəyan edən güclü Azərbaycan var. Geridə qoyduğumuz 32 il və İlham Əliyevin hakimiyyətdə olduğu son 20 il məhz belə yadda qalıb. Çünki Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə öz tarixini özü yazır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi strategiyanı inamla davam etdirən Azərbaycan Respublikası öz dinamik inkişafında yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə sosial-iqtisadi sahədə həyata keçirilən bütün tədbirlər yalnız bir məqsədə - Azərbaycan Respublikasında vətəndaşların daha layiqli həyat səviyyəsinin təmin edilməsinə xidmət edir. Son illərdə həyata keçirilən islahatlar vətəndaşlarımızın həyat səviyyəsinin daha da yüksəlməsinə öz əhəmiyyətli təsirini göstərir. Azərbaycanda həyata keçirilən dövlət siyasəti sosial-iqtisadi inkişafa və əhalinin sosial rifahının davamlı yüksəlişinə əlverişli zəmin yaradır.

Regionların dayanıqlı inkişafı təmin edilir, özünüməşğulluq proqramının uğurlu icrası nəticəsində əhalinin sosial müdafiəsi daha da gücləndirilir. Hədəfə çatmaq üçün qeyri-neft sənayesi və kənd təsərrüfatı inkişaf etdirilir. Ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi son illərin əsas prioritetləri sırasındadır. Bu hədəf regionların ixtisaslaşdırılmasına, ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına dair Dövlət Proqramlarının təsdiqlənməsinə və uğurlu icrasına yol açdı. Üzümçülük və şərabçılıq, tütünçülük, pambıqçılıq, baramaçılıq, ipəkçilik sahələrində, turizm və tranzit potensialının genişləndirilməsi və digər sektorların inkişaf etdirilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi, biznes və investisiya mühiti davamlı olaraq təmin edilir, dövlət dəstəyi artırılır, aqroparklar yaradılır. Azərbaycanın qarşısında heç bir iqtisadi və maliyyə çətinliyi yoxdur. Güclü iqtisadiyyat yaradılır, sosial məsələlərin həlli istiqamətində addımlar atılır. Bütün bu addımlar isə insan amilinə verilən dəyərdən, həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayanmasından irəli gəlir.







**Mustafa KAMAL,**
**"Respublika".**